Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər–N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz ərizəsini verən iddiaçı- “PUIG FRANCE” */ünvan* – 65-67 avenue des Champs Elysées F-75008 Paris (FR)/ şirkətinin nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın,

qarşı tərəf, “KOMTEC LTD” MMC-nin */ünvan:* AZ 1110, Bakı ş. Nərimanov ray. C.Hacıbəyli, ev 32, mən. 26 *(AZ)/* nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin iştirakları ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

09.01.2018 il tarixdə “KOMTEC LTD” MMC-yə məxsus “ ” adlı əmtəə nişanının 03-cü siniflərin əmtəələri üzrə qeydiyyatına qarşı (qeydiyyatı təsdiqləyən N 2013 0024 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 22.01.2013; ilkinlik – 28.11.2012; siniflər: 01-45) “PUIG FRANCE” şirkətinin adından patent müvəkkili T.A.Yaqubova tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, 22.01.2013-cü il tarixdə Azərbaycanda “KOMTES LTD” MMC-nin adına 01-45-ci siniflərə aid əmtəələr üzrə əmtəə nişanı (2013 0024 saylı şəhadətnamə) qeydiyyata alınmışdır. “PUIG FRANCE” şirkətinin

fikrinə görə "MILLION MILLI ODEME NOQTESI" əmtəə nişanı aşağıda sadalanan və daha əvvəl ilkinliyə malik olan və ƏXBT-nın (Əmtəə və xidmətlərin beynəlxalq təsnifatı) 03 sinfinə daxil olan eyni cinsli əmtəələr barəsində “PUIG FRANCE” şirkətinin adına mühafizə olunan əmtəə nişanları ilə qarışdırılacaq dərəcədə oxşardır:

"1 MILLION" 931826 saylı beynəlxalq qeydiyyat üzrə, 12.02.2007-ci il tarixli ilkinliklə;




("1 MILLION" (kombinasiya edilmiş)) 971268 saylı beynəlxalq qeydiyyat üzrə, 23.01.2008-ci il tarixli ilkinliklə;

"LADY MILLION" 997406 saylı beynəlxalq qeydiyyat üzrə, 10.09.2008-ci il tarixli ilkinliklə;

Nişan digər nişan (əmtəə nişanı) ilə bütün elementlərin üst-üstə düşdüyü halda oxşar hesab olunur. Nişan digər nişan (əmtəə nişanı) ilə ayrı-ayrı fərqlərinin olmasına baxmayaraq ümumilikdə onunla assosiasiya olunduqda qarışdırılacaq dərəcədə oxşar hesab olunur. “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29-cu Maddəsinə əsasən Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığı səsli (fonetik), qrafik (görünüşlü) və məna ifadəli (semantik) ola bilər. Sadalanan əlamətlər istər hər biri ayrı-ayrılıqda, istərsə də müxtəlif birləşmələrdə nəzərə alına bilər. Mübahisə predmeti olan "MILLION MILLI ODEME NOQTESI" əmtəə nişanı ilə PUIG FRANCE şirkətinə məxsus 931826, 971268 və 997406 saylı beynəlxalq qeydiyyatlar üzrə əmtəə nişanları seriyasının əsasını təşkil edən güclü element olan "MILLION" sözü oxşardır. Mübahisə predmeti olan "MILLION MILLI ODEME NOQTESI" əmtəə nişanının və qarşılaşdırıldığı əmtəə nişanlarının mühafizə olunan "MILLION" söz elementinin müqayisəli analizi aşağıda verilmişdir.

1. Fonetik oxşarlıq

Nişanların səs oxşarlığı müqayisə olunan nişanlarda yaxın və üst-üstə düşən səslərin olması; nişanları təşkil edən səslərin yaxınlığı; yaxın səslərin və səs birləşmələrinin bir-birinə nisbətən yerləşməsi; üst-üstə düşən hecaların olması və onların yerləşməsi; nişanlardakı hecaların sayı; nişanların tərkibində üst-üstə düşən səs birləşmələrinin yeri; sait səslərin tərkib yaxınlığı; nişanların üst-üstə düşən hissələrinin xarakteri; bir nişanın digərinə daxil olması; vurğu kimi əlamətlər əsasında müəyyən olunur.

Baxılan nişanlar aşağıdakı kimi tələffüz olunur:

| Şəhadətnamə № 2013 0024 | MP № 931826 | MP № 971268 | MP № 997406 |
|---|---|---|---|
| [mil-li-ön] | [u-an mil-li-on] | [u-an mil-li-on] | [le-di mil-li-on] |

Baxılan nişanların qarışdırılma dərəcəsinə qədər fonetik oxşarlığı yeddi səs və üç hecadan ibarət və tələffüzünə görə tamamilə oxşar olan [mil-li-on] söz elementlərini ehtiva etməsi ilə şərtləşdirilir. Həmin söz elementi mübahisə predmeti olan əmtəə nişanının mühafizə olunan yeganə elementi və qarşılaşdırılan əmtəə nişanlarının dominantlıq edən elementidir, belə ki, o, 1 MILLION" və "LADY MILLION" nişanlarının əlavə söz elementlərini səs və heca sayına görə əhəmiyyətli dərəcədə üstələyir, həmçinin qarşılaşdırılan əmtəə nişanları seriyasının əsasını təşkil edir. Mübahisə predmeti olan nişanın güclü söz elementi olan "MILLION"un qarşılaşdırılan "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanlarına tam fonetik daxil olması baş verir ki, bu da həmin nişanların səs oxşarlığının vacib əlamətidir.

2. Qrafik oxşarlıq

Qrafik oxşarlıq ümumi görünüş təəssüratı; şriftin növü; hərflərin xarakterini nəzərə almaqla qrafik yazılış (məsələn, çap və ya yazı, baş və ya sətri hərflərlə); hərflərin bir-birinə nisbətən yerləşməsi; sözü təşkil edən hərlərin aid olduğu əlifba; rəng və ya rəng birləşməsi kimi əlamətlərə əsasən müəyyən olunur.

1 MILLION LADY MILLION

Baxılan nişanların qarışdırılma dərəcəsinə qədər görünüşcə oxşarlığı onların bütün baxılan nişanlarda dominantlıq edən və hərf tərkibi baxımından tamamilə oxşar olan "MILLION" söz elementlərini ehtiva etməsi ilə şərtləşdirilir. Mübahisə predmeti olan əmtəə nişanında "MILLION" sözü yalnız həmin nişanın müvafiq mal və xidmətlər barəsində fərdiləşdirmə funksiyasını yerinə yetirən yeganə güclü elementi olması hesabına deyil, həmçinin bu elementin "MILLI ODEME NOQTESI" söz elementlərinə nisbətən daha iri ölçülü şriftlə yerinə yetirilməsi və nişanın kompozisiyasında qavrama üçün daha rahat mövqedə - mərkəzdə, "MILLI ODEME NOQTESI" söz elementlərinin üst hissəsində yerləşməsi hesabına da dominantlıq təşkil edir. Qarşılaşdırılan əmtəə nişanlarında "MILLION" söz elementi nişanların bütün digər elementlərini hərf sayına görə üstələməsi, eləcə də eyni güclü elementi olan əmtəə nişanları seriyasının əsasını təşkil etməsi hesabına dominantlıq təşkil edir. Mübahisə predmeti olan və qarşılaşdırılan əmtəə nişanlarının tərtibatı üçün istifadə olunan şrift növündə olan bəzi fərqlənmə onların oxşarlığının ümumi təəssüratına əhəmiyyətli təsir göstərmir, belə ki, ümumilikdə mübahisə predmeti olan əmtəə nişanının orijinal şrifti forma etibarilə "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanlarının standart şriftinə olduqca yaxındır. Qarşılaşdırılan 971268 beynəlxalq qeydiyyat üzrə kombinasiya edilmiş "1 MILLION" əmtəə nişanının tərkibinə təsviri elementin daxil olması da əhəmiyyətli fərq deyil.

Təsviri və söz elementlərindən ibarət kombinasiya edilmiş nişan istehlakçı tərəfindən qavranılarkən onun diqqəti, bir qayda olaraq, söz elementi üzərində cəmlənir. Həmçinin söz elementi təsviri elementə nisbətən daha asan yadda qalır. Beləliklə, mübahisə predmeti olan əmtəə nişanı qrafik meyar üzrə "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanları ilə qarışdırma dərəcəsinə qədər oxşardır və bir istehsalçının, “PUIG FRANCE” şirkətinin eyni güclü – "MILLION" elementinə malik məhsul xəttinin davamı kimi qəbul olunur.

3. Semantik oxşarlıq

Məna oxşarlığı nişanların təməlini təşkil edən anlayışların, ideyaların oxşarlığı, xüsusən də müxtəlif dillərdə nişanların mənasının üst-üstə düşməsi; nişanların məntiqi vurğu altında olan və müstəqil mənaya malik olan elementlərindən birinin üst-üstə düşməsi; nişanların təməlində duran anlayışların ziddiyyəti kimi əlamətlərə əsasən müəyyən olunur. Mübahisə predmeti olan "MILLION MILLI ODEME NOQTESI" əmtəə nişanının qarşılaşdırılan "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanları ilə semantik oxşarlığı həmçinin onların tərkibinə tamamilə oxşar "MILLION" söz elementinin daxil edilməsi ilə şərtləşdirilir. İngilis dilində olan "MILLION" sözü azərbaycan dilindəki “MİLLİON” analoqu ilə səslənmə və yazı baxımından olduqca oxşar olduğuna görə (eyni cür yazılır və oxunur) həmin sözün mənası hətta ingilis dilini bilməyən istehlakçılar üçün belə asanlıqla aydın olacaq. Mübahisə predmeti olan əmtəə nişanının "национальная точка оплаты" mənasını verən "MILLI ODEME NOQTESI" əlavə söz elementləri təsviridir və qarşılaşdırılan "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanları ilə müqayisədə həmin nişanın mənasına heç bir yenilik və orijinallıq gətirmir. Ekspert rəyinə əsasən bu sözlər hüquqi cəhətdən mühafizə olunmur. Qarşılaşdırılan əmtəə nişanlarına gəldikdə isə burada “1 milyon, bir milyon” kimi tərcümə olunan "1 MILLION" söz elementinin mənası mübahisə predmeti olan əmtəə nişanının "MILLION" ("milyon") sözü ilə tamamilə eynidir, belə ki, ("milyon") sözü tək halda, təbii ki, "1 (bir) milyon" deməkdir. "LADY MILLION" əmtəə nişanı “ledi, dama, xanım” və s. kimi tərcümə olunan əlavə "lady" sözünü ehtiva edir. Bu söz elementnin əlavə olunması PUIG FRANCE şirkətinin "MILLION" söz elementli məhsul xəttini yalnız genişləndirir və mübahisə predmeti olan və qarşılaşdırılan əmtəə nişanlarının qavranması zamanı istehlakçıda yaranan oxşar semantik assosiasiyalara əhəmiyyətli təsir göstərmir. "MILLION MILLI ODEME NOQTESI" əmtəə nişanı "1 MILLION", 971268 saylı beynəlxalq qeydiyyat üzrə "1 MILLION" (kombinasiya edilmiş) və 997406 beynəlxalq qeydiyyat üzrə "LADY MILLION" əmtəə nişanları ilə, baxılan bütün nişanların

mübahisə predmeti olan əmtəə nişanının yeganə güclü, mühafizə olunan elementi və qarşılaşdırılan əmtəə nişanlarının dominantlıq edən elementi olan "MILLION" söz elementini ehtiva etməsi hesabına fonetik, qrafik və semantik meyarlara görə qarışdırma dərəcəsinə qədər oxşardır.

İşarələrin oxşarlığı həmin işarələrin irəli sürüldüyü (qeydiyyata alındığı) malların (xidmətlərin) həmcinsliyi ilə əlaqədardır. Mallar (xidmətlər) eyni olduqda, eləcə də onların həmcinsliyi eyniliyə yaxın olduqda malların (xidmətlərin) fərdiləşdiirlməsi üçün istifadə olunan işarələrin qarışdırılma ehtimalı daha güclüdür. Malların həmcinsliyinin müəyyən olunması üçün xüsusən malların cinsi (növü), onların istehlak xüsusiyyətləri və funksional əhəmiyyəti (istifadə həcmi və məqsədi), hazırlandığı materialın növü, malların bir-birini qarşılıqlı tamamlaması və qarşılıqlı əvəz oluna bilməsi, reallaşdırılması şərtləri (o cümlədən ümumi satış yeri, topdan və ya pərakəndə şəbəkə üzərindən satış), istehlakçı çevrəsi, malların ənənəvi və ya üstünlük təşkil edən istifadə qaydası kimi hallar və digər əlamətlər nəzərə alına bilər.

Həmcinsliyin əsas əlamətlərinə aiddir:

– malların cinsi (növü);

– malların təyinatı;

– malların hazırlandığı materialın növü.

Mübahisə predmeti olan və qarşılaşdırılan əmtəə nişanları ƏXBT-nın 03 sinfinə daxil olan aşağıdakı mallar barəsində qeydiyyata alınıb:

| Şəhadətnamə № 2013 0024 | MP № 931826 | MP № 971268 | MP № 997406 |
|---|---|---|---|
| ağardıcı preparatlar və paltar yuma üçün digər maddələr; təmizləmə, cilalama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar; ətriyyat məmulatı, efir yağları, kosmetika, saç üçün losyonlar; diş tozları və pastaları | (ing.) bleaching preparations and other substances for laundry use; cleaning, polishing, scouring and abrasive preparations; soaps; perfumery, essential oils, cosmetics, hair lotions; dentifrices<br><br>(azərb.) ağardıcı preparatlar və paltar yuma üçün digər maddələr; təmizləmə, cilalama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar; ətriyyat məmulatı, efir yağları, kosmetika, saç üçün losyonlar; diş tozları və pastaları | (ing.) bleaching preparations and other substances for laundry use; cleaning, polishing, scouring and abrasive preparations; soaps; perfumery, essential oils, cosmetics, hair lotions; dentifrices<br><br>(azərb.) ağardıcı preparatlar və paltar yuma üçün digər maddələr; təmizləmə, cilalama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar; ətriyyat məmulatı, efir yağları, kosmetika, saç üçün losyonlar; diş tozları və pastaları | (ing.) bleaching preparations and other substances for laundry use; cleaning, polishing, scouring and abrasive preparations; soaps; perfumery, essential oils, cosmetics, hair lotions, deodorants for personal use; dentifrices<br><br>(azərb.) ağardıcı preparatlar və paltar yuma üçün digər maddələr; təmizləmə, cilalama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar; ətriyyat məmulatı, efir yağları, kosmetika, saç üçün losyonlar; şəxsi istifadə üçün dezodorantlar; diş tozları və pastaları |

Göründüyü kimi, nəzərdən keçirilən əmtəə nişanlarının ƏXBT-nın 03 sinfinə daxil olan mallarının siyahısı malların ifadə edilməsi baxımından tamamilə üst-üstə düşməsi hesabına oxşardır. Bu cür mallar eyni cins və növdən olan mallara aid olduğundan, eyni təyinata malik

olduğundan və eyni materiallardan hazırlandığından onlar həmçinin oxşar reallaşdırma şərtləri və kanalları ilə xarakterizə olunur və təkcə eyni mağazada deyil, hətta eyni rəfdə belə mövcud ola bilər. Mübahisə predmeti olan 2013 0024 saylı şəhadətnamə üzrə "MILLION MILLI ODEME NOQTESI" və qarşılaşdırılan "1 MILLION"/ "LADY MILLION" əmtəə nişanlarının eyni olan "MILLION" söz elementini ehtiva etməsi hesabına yüksək oxşarlıq dərəcəsi ilə səciyyələndirildiyini, eləcə də ƏXBT-nın 03 sinfinə daxil olan bənzər mallar barəsində qeydiyyata alındığını nəzərə alaraq baxılan nişanların və onlarla markalanan malların qarışdırılma, həmçinin istehlakçı tərəfindən onların eyni bir istehsalçıya aid edilmə ehtimalı olduqca yüksəkdir. PUIG FRANCE şirkəti dəb və ətriyyat sənayesində çalışan çoxmilli Barselona korporasiyası olan PUIG qrupunun tərkibinə daxildir. PUIG şirkəti öz məhsulunu dünyanın 150 ölkəsində reallaşdırır və onlardan 22-də birbaşa iştirak etməklə, bütün dünya üzrə 4483 nəfəri işlə təmin edir. Şirkətin 2015-ci ilə olan dövriyyəsi 1.6 milyard avro xalis gəlir və 126 milyon xalis mənfəət təşkil etmişdir. İstər dəb sahəsində, istərsə də ətriyyat sanayesində PUIG şirkəti "Nina Riççi" (Nina Ricci), "Karolina Errera" (Carolina Herrera) və "Pako Raban" (Paco Rabanne) brendləri altında fəaliyyət göstərir. Dəb sektrunda o həmçinin "Jan-Pol Qotye" (Jean Paul Gaultier) moda evinin majoritar səhmdarıdır. Bundan əlavə, ətriyyat sahəsində şirkət bir sıra ticarət markaları adından lisenziyalar əsasında fəaliyyət göstərir ki, onların arasında Comme des Garçons, Prada və "Valentino" (Valentino) kimi markaları qeyd etməyə dəyər. Müəssisənin fəaliyyəti Antonio Puç Kastelyonun öz şirkətini təsis etdiyi 1914-cü ildən başlayır. Həmin vaxt şirkət öz təsisçisinin adını götürərək, “Antonio Puç” SC adlandırıldı. Həmin vaxtdan etibarən müəssisə öz biznesini kosmetika və ətriyyat sektorlarında təmərküzləşdirmişdir. 1922-ci ildə şirkət İspaniyada istehsal olunmuş "Miledi" adlı ilk dodaq boyasını bazara çıxarmışdır. 1940-cı illərdə şirkət onun emblem məhsullarından birinə çevrilmiş “Aqua lavanda Puş” adlı lavanda rayihəli ətrin satışına başladı. 1959-cu ildə şirkət Barselonanın Besos sənaye zonasında fyeni fabrik inşa etdirməklə və İspaniyanın hüdudlarından kənarda – ABŞ-da ilk filialını açmaqla beynəlxalq ekspansiyasını həyata keçirməyə başladı. 1968-ci ildə daha bir filial Parisdə açıldı. Bu, ispan dizayneri Pako Rabanın ticarət markasının PUIG şirkətinə birləşdiyi anda baş verdi. 1987-ci ildə PUIG şirkəti Pako Raban moda evini tamamilə satın aldı. 1995-ci ildə Karolina Erreranın dəb sənayesindəki biznesi də PUIG şirkətinə birləşdirildi. 1998-ci ildə şirkət “Nina Riççi” ticarət markasını satın almaqla, bu yolla prestijli brendləri əldə etmək siyasətini davam etdirdi. 2002-ci ildə Fransanın Comme des Garçons moda evi şirkətin bir hissəsinə çevrildi, bir il sonra isə Prada İtaliya firmasının ətirləri ilə məşğul olan firma satın alındı. Hər iki brend PUIG şirkətinin ətir kataloqunun hissələrini təşkil etməyə başladı. PUIG holdinqinin struktur tərkibinə daxil olan ən son nailiyyətləri italyan dizayneri Valentinonun (2010-cu ildə) və fransız modelyeri Jan-Pol Qotyenin brendləri oldu. Hal-hazırda PUIG şirkəti dördü Avropada, biri isə Meksikada yerləşən beş fabrikin sahibi olmaqla, hər il 331 milyon vahid ətriyyat məhsulu istehsal edir. Bu cür istehsal həcmi sayəsində 2010-cu ildə ümumdünya ətriyyat biznesinin 7.6% payına nail olmuşdur ki, həmin rəqəm beş il öncə 3.5% təşkil etmişdir və bu həmin dövr üçün dünya üzrə istehsal artımının 35%-nə bərabər tutulurdu.

"1 MILLION" və "LADY MILLION" əmtəə nişanları PUIG şirkəti tərəfindən Pako Raban moda evinin ətriyyat məmulatı barəsində istifadə olunur. PUIG FRANCE şirkəti tərəfindən "1 MILLION" və "LADY MILLION" əmtəə nişanlarının ƏXBT-nın 03 sinfinə daxil olan mallar barəsində istifadə olunması nəticəsində bu cür mallar barəsində tətbiq olunan "MILLION" söz elementi istehlakçılar tərəfindən dominantlıq edən "MILLION" söz elementli qarşılaşdırılan əmtəə nişanları seriyası, onlarla markalanan məhsullar və PUIG FRANCE şirkəti ilə assosiasiya olunur. PUIG FRANCE (FR) firmasının adından və onun tapşırığı ilə hərəkət edərək, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 15-ci Maddəsini rəhbər tutaraq və “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.1, 29.6.2, 29.6.3 və 29.6.4 Maddələrinə əsaslanaraq əmtəə nişanının 2013 0024 saylı

qeydiyyatının 03 sinfin əmtəələri üzrə xitam verilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurasının iclası zamanı qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev çıxış edərək bildirmişdir ki, 2013 0024 No-li “ ” nişanı əmtəə nişanı qismində, əmtəələrin və xidmətlərin Beynəlxalq Nitsa təsnifatı üzrə 1-45 siniflər üzrə, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun müvafiq müddəalarına uyğun olaraq 22.01.2013-cü il tarixində qeydiyyata alınmışdır. Göstərilən nişanın ekspertizası zamanı, nişanın qeydiyyata alınmasına mane törədə bilən hər hansı bir digər əmtəə nişanının mövcudluğu barədə Patent İdarəsi tərəfindən hər hansı bir irad irəli sürülməmişdir. “ ” nişanına qarşı “PUIG FRANCE” kompaniyasının (Fransa) adına əmtəə nişanlarının beynəlxalq (Madrid Sazişi üzrə) qeydiyyata alınmış Azərbaycan Respublikasında qüvvədə olan aşağıda göstərilmiş beynəlxalq əmtəə nişanları qarşı qoyulmuşdur.

1. - Beynəlxalq əmtəə nişanının adı (təsviri)
və qeydiyyat nömrəsi: 931826 –“1 MILLION”;
- Qeydiyyat tarixi: 31.07.2017;
- Sinif: 03- ağartma preparatları və camaşır məqsədləri üçün istifadə edilən digər maddələr; təmizləyici, pardaxlayıcı, qaşıyıcı və abrazivli preparatlar; sabunlar; ətirlər, efir yağları, kosmetika vasitələri, saç losyonları; diş tozları və məcunları;
- Qeydiyyatın qüvvədə olma
müddətinin bitməsi tarixi: 31.07.2027;
- Əmtəə nişanının sahibinin adı: “PUIG FRANCE”;

2. - Beynəlxalq əmtəə nişanının adı (təsviri)
və qeydiyyat nömrəsi: 971268- “1 MILLION”;
-Qeydiyyat tarixi: 21.07.2008;
-Sinif: 03- ağartma preparatları və camaşır məqsədləri üçün istifadə edilən digər maddələr; təmizləyici, pardaxlayıcı, qaşıyıcı və abrazivli preparatlar; sabunlar; ətirlər, efir yağları, kosmetika vasitələri, saç losyonları; diş tozları və məcunları;
-Qeydiyyatın qüvvədə olma
müddətinin bitməsi tarixi: 21.07.2018;
-Əmtəə nişanının sahibinin adı: “PUIG FRANCE”;

3. - Beynəlxalq əmtəə nişanının adı (təsviri)
və qeydiyyat nömrəsi: 9974406 “LADY MILLION”;
- Qeydiyyat tarixi: 09.03.2009;
- Sinif: 03- ağartma preparatları və camaşır məqsədləri üçün istifadə edilən digər maddələr; təmizləyici, pardaxlayıcı, qaşıyıcı və abrazivli preparatlar; sabunlar; ətirlər, efir yağları, kosmetika vasitələri, saç losyonları; diş tozları və məcunları;
- Qeydiyyatın qüvvədə olma
müddətinin bitməsi tarixi: 09.03.2019;
Əmtəə nişanının sahibinin adı: “PUIG FRANCE”;

“Əmtəə Nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaların ”-nın 29.6-cı bəndində “Sözlərdən ibarət iddia edilən nişanların yoxlanılması” deyilir ki, 29.6.1 Sözlərdən ibarət olan nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir:

a) sözlərdən ibarət olan sözlərlə (işarələrlə);

b) kompozisiyaya daxil olan sözlərdən ibarət elementlərin kombinasiyalı nişanları (işarələri) ilə;

Sözlərdən ibarət olan nişanların (işarələrin) oxşarlığı səsli (fonetik), qrafik (görünüşlü) və məna ifadəli (semantik) ola bilər.

“ ”Milli Ödəmə Nöqtəsi” və “MILLION” sözlərinin səs üzrə (fonetik) oxşarlığının müqayisəsi aşağıda verilmişdir:

“ ” - sözünün transkripsiyası olduğu kimi [MİLLİÖN], qarşı qoyulmuş nişanın transkripsiyası [MİLLİON] kimi səslənir. “ ” nişanının sonluğunu təşkil edən “ön” hecası qarşı qoyulmuş nişanın sonluğunu təşkil edən “on” hecasından fərqlidir. “ ” nişanının tərkibində iki “i” “i” hərfləri “ö” hərfi və “ön” hecası xüsusi stilləşdirilmiş üslubda yazılmışdır. Ümumiyyətlə “ ” nişanı bütövlükdə stilləşdirilmiş üslubda yazılmışdır. Qrafik görünüş üzrə qarşı qoyulmuş nişan isə standart çap ingilis latın əlifbası ilə yazılmış “MILLION” sözündən ibarətdir və bu nişan hər hansı bir stilləşdirilmiş yazı üslubuna malik deyil. “ ” sözünün mənası “mülki dövriyyədə birinci” və ya “milli sistemdə istifadə edilən üsulların ən üstünü ” və sairə bu yönümlü mənalarda işlədilə bilər. Lakin qarşı qoyulmuş “MILLION” nişanları isə sırf kəmiyyət ölçüsü göstərən bir rəqəmə dəlalət edirlər və azərbaycan dilinə “Bir Mılıon” və “Ledi Mılıon” kimi tərcümə edilir. Müqayisə edilən nişanların ideya uyğunluğu, həmçinin köklü surətdə biri-birindən fərqlidir, belə ki, onların semantikası əks qütblərə malikdir, “birincilik” , “million” ; “ ” ifadəsi iki sözün, yəni “milli” və “ön” sözlərinin birləşdirilməsi nəticəsində yaradılmış uydurma bir sözdür, belə ki, Azərbaycan dilinin orfoqrafiyasında “ ” sözü mövcud deyil; “ ” nişanı qırmızı və qara rənglərin ahəngi ilə qeydiyyata alınmışdır, lakin qarşı qoyulmuş “MILLION” nişanları isə qara rəngə malikdirlər. Müqayisə edilən nişanlar fərqli dil qruplarına mənsub olan və fərqli dil mühütlərində istifadə edilən sözlərə aiddir, belə ki, “MilliÖN” sözü türk dili qrupuna, lakin “MILLION” sözü isə qərbi Avropa, Alman-Roman dilləri qrupuna aiddir, beləliklə müqayisə edilən sözdən ibarət olan nişanların yuxarıda göstərilmiş səbəblərdən biri-birinə qarşı qoyulması və onların istehlakçılar və istehsalçılar arasında hər hansı bir çaşqınlıq yarada biləcəyi mülahizəsi məntiqə uyğun deyil.Nişanların biri-birinə nisbətdə aparılmış müqayisəsi onu göstərir ki, müqayisə edilən nişanlar həm fonetik, həm qrafik, həm də semantik nöqteyi – nəzərdən biri-birindən tamamilə fərqli nişanlardır. Bu hal həmçinin onunla təsdiqlənir ki, nişanının 22.01.2013-cü il qeydiyyata alındığı tarixdən hal-hazırki vaxta qədər bu nişanların istehlakçılar arasında hər hansı bir çaşqınlıq yaratması barəsində müvafiq orqanlara məlumat daxil olmayıb. Nişanların yuxarıda verilmiş müqayisəsinin nəticələrini nəzərə almaqla “PUIG FRANCE” şirkətinin patent müvəkkili tərəfindən verilmiş etiraz ərizəsinin təmin edilməməsini xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın və qarşı tərəfin nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin çıxışlarını dinləyib, hesab etdi ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası təqdim edilən sənədləri və materialları (məlumatları) araşdıraraq müəyyən etdi ki:

“PUIG FRANCE” şirkəti /*ünvan* – 65-67 avenue des Champs Elysées F-75008 Paris (FR) / tərəfindən “1 MILLION” (931826) adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə 31.07.2007-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 20.09.2007-ci il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2007/33 Gaz);

“PUIG FRANCE” şirkəti /*ünvan* – 65-67 avenue des Champs Elysées F-75008 Paris (FR) / tərəfindən “1 MILLION” (971268) adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə 21.07.2008-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 11.09.2008-ci il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2008/32 Gaz);

“PUIG FRANCE” şirkəti /*ünvan* – 65-67 avenue des Champs Elysées F-75008 Paris (FR) / tərəfindən “LADY MILLION” (997406) adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə 09.03.2009-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 23.04.2009-cu il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2009/14 Gaz);

“milliön” adlı əmtəə nişanı 01-45-ci sinifin əmtəələri və xidmətləri üzrə 22.01.2013 il tarixində “KOMTEC LTD” MMC-nin /*ünvan:* AZ 1110, Bakı ş. Nərimanov ray. C.Hacıbəyli, ev 32, mən. 26 *(AZ)/* adına Azərbaycan Respublikasında 2013 0024 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 28.11.2012).

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.1-ci “Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir”, 29.6.2-ci “Səs üzrə (fonetik) oxşarlıq”, 29.6.3-cü “Qrafiki (görünüşlü) oxşarlıq”, 29.6.4-cü “Məna etibarı ilə”, 29.9.1-ci *(“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır”)* və 29.9.2-ci *(“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır”)* bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki. “milliön” əmtəə nişanında əsas yeri tutan “milliön” sözü “1 MILLION” (971268), “1 MILLION” (971268), “LADY MILLION” (997406) əmtəə nişanlarına daxil olan və mühafizə olunan element kimi sayılan “MILLION” sözü ilə fonetik, qrafik və semantik cəhətdən oxşardırlar. Həmçinin

“milliön” əmtəə nişanının 03-cü sinifin əmtəələri və “1 MILLION” (971268), “1 MILLION” (971268), “LADY MILLION” (997406) adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri üst-üstə düşür.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının

Qanunun 10-cu maddəsindən və təqdim edilən sənədlərdən görünür ki, “milliön” adlı əmtəə nişanının (2013 0024 nömrəli qeydiyyat) ilkinlik tarixi – 28.11.2012 il tarixidir.

“1 MILLION” (971268) adlı əmtəə nişanının ilkinlik tarixi 31.07.2007 il, “1 MILLION” (971268) adlı əmtəə nişanının ilkinlik tarixi 21.07.2008 il , “LADY MILLION” (997406) adlı əmtəə nişanının ilkinlik tarixi 09.03.2009 il tarixidir.

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 10-cu maddəsinə görə “1 MILLION” (971268), “1 MILLION” (971268), “LADY MILLION” (997406) adlı əmtəə nişanlarının ilkinliyi üstündür.

Qeyd edilənləri nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, müqayisə edilən əmtəə nişanları oxşardır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.2-ci, 29.6.3-cü, 29.6.4-cü bəndlərini və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin “a” və “b” bəndlərini, 10-cu və 29-cu maddələrini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. " milliön MİLLİ ÖDƏMƏ NÖQTƏSİ " adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri üzrə qeydiyyatına qarşı *(qeydiyyatı təsdiqləyən 2013 0024 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 22.01.2013; ilkinlik – 28.11.2012; siniflər: 01-45)* “PUIG FRANCE” şirkətinin adından patent müvəkkili T.A.Yaqubova tərəfindən verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və təmin olunsun.

2. " milliön MİLLİ ÖDƏMƏ NÖQTƏSİ " adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri üzrə qeydiyyatına xitam verilsin.

3. Apellyasiya şurasının qərarını aldığı tarixdən 3 ay ərzində Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev